

HAFİZ ƏLİMƏRDANLI

# QƏZƏLLƏR

## *Qəzəl yazdım, axsın daşan sellər kimi*

Qəzəl yazdım, axsın daşan sellər kimi,
Ətir saçsın, yazda açan güllər kimi.

Hər dövranın öz tələbi var qəzələ,
Üşütməsin, qışda əsən yellər kimi.

Qəzəl ürək yandırmasa, oxunarmı?
Gərək olsun sığallanan tellər kimi.

Sevən qəlbə nə vardır ki, qəzəl desin,
Susar könül, küskün olsa göllər kimi.

Qəzəl de ki, diyar-diyar o dolansın,
Yayılsın qoy sərhəd bilməz çöllər kimi.

Yazılarsa ana dildə hər bir qəzəl,
Ürək açar, dolandığın ellər kimi.

Hafiz, qəzəl könüllərə gərək olur,
Ömrümüzdən ötüb keçən illər kimi.

***28-29.01.2020***

## *Yorulmaram yar deməkdən*

Yorulmaram yar deməkdən, könlün mənə yar deməzmi?
Bu qədər ki, mən yanmışam, bağrın heç yanar deməzmi?

Gecə-gündüz mən ağlaram, həsrət axı yaman olur,
Qəlbim gözlər, çatdı hicran, bir zaman dildar deməzmi?

Xəyalımdan bir an keçmir, səninlə tək olan anlar,
Axar sular coşar, daşar, gələndə bahar deməzmi?

Dünya özü dərd-ələmdir, sevincdə də kədər tapar,
Dəyişməz heç zaman-zaman, verilən qərar deməzmi?

Aləm bilir, könlüm istər, təkcə sənlə olsun hər gün,
Dilin xəfif tənə edib, dolansam kənar deməzmi?

Dedim ol dildara deyin, hər əzabın sonu vardır,
Canı verrəm, əlimdədir, istərsə aşkar deməzmi?

Səbr edib sən ey Hafiz, dildara bir qulaq assan,
Etdiyin nalə bu qədər, qəlbinə çatar deməzmi?

***16.11.2019***

## *Qəlbimdən çıxarmaq olmaz*

Dedilər, saçın ağarmış, yardan bəs danışmaq olmaz,
Dedim, əvvəldən sevmişdim, qəlbimdən çıxarmaq olmaz.

Hər kim ki, söyləsə eşqdən, yaşını salmayın yada,
Ürəkdə sevda qalarsa, ürəyə qarışmaq olmaz.

Dedilər, eşq bir məsəldir, istər ki, pərvanə gəlsin,
Deyilən pərvanə könlüm, nədən ki, yarışmaq olmaz.

Eşqimə mən sadiqəm tək, kimdənsə aləm danışır,
Bəs mənə deyən yoxdur heç, bunla barışmaq olmaz.

Eşq ömürdən bir cığırdır, dəyişsəm bir gün dünyamı,
Gedəcək mənlə bərabər, nədən ki, dolaşmaq olmaz.

Qəlbimə o eşq ki, gəlmiş, ixtiyar yox danım indi,
Deyirsən qəlbimdən çıxsın, günahdır, çalışmaq olmaz.

Ağarsa saçı Hafizin, qayğısı artsa da hər gün,
Sevgilim arxayın ol sən, bu sevgidən aşmaq olmaz.

***17-22.11.2019***

Azərbaycan Milli Kitabxanası

## Niyaldağ, illəri saldıq biz yola

Bir qəzəl söyləyim şəninə, sənin Niyaldağ,
Məğrur görkəmini unutmaq çətin, Niyaldağ.

Zirvələr karvanı səf-səfə düzülüb gəlir,
Gətirir keçmişdən bir xəbər yəqin, Niyaldağ.

Ürəyim aralı olsa da bu günlər səndən,
Gördüyüm röyalar necə də şirin, Niyaldağ.

Qoynunda böyüdüm, ötüşdü dövran, neyləyim,
Qalar xatirələr qəlbimdə, dərin, Niyaldağ.

Bilinmir heç, neçə illəri yola salmısan,
Açılmır hələ də tarixdən sirrin, Niyaldağ.

Əsrlər söyləyir Cavanşir yadigarısan,
Girdiman səsləyir, ellər qoy bilsin, Niyaldağ.

Hafizəm, çeşməndən su içmiş şair oğlunam,
Yorulmaq bilmərəm, qoymayır hicrin, Niyaldağ.

***26-27.11.2019***

## Gözəl sözü ürək deyər

Ey gözəlim, gözəllərə gözəl sözü ürək deyər,
Sözlərində min bir məna, bəzən sevgi, bəzən kədər.

Şükür edərəm mən Allaha, nəzmə çəksəm sözlərimi,
Ki, eşitsin pərvərdigar, dildarıma versin xəbər.

Hər gözəlin öz yeri var, hər sözün də öz qiyməti,
Hər gördüyüm pəricahan bilməz nədir onda dəyər.

Tək sən bildin, qəlbim nədən, indi hər gün nəğmə söylər,
Tək sən bildin, bu nəğmələr susmaq bilməz axşam, səhər.

Eşitdiyin ürəyimin ah-naləsi, fəryadıdır,
Ey vəfasız, kifayətdir, mənə hərdən salsan nəzər.

Vəfasızlar peşman olur, söyləyirlər, əvvəl axır,
Hər gözəlin öz dövranı, zaman keçər, ötüb gedər.

Sən Hafizə könül ver ki, yenə gəlsin ömrə bahar,
Sözlərində mənaya bax, qəm-kədərdən qalmaz əsər.

***06-07.12.2019***

## Sevinərəm yetsəm yara

Ey gül, canı sərf edərəm, görmək üçün səntək canı,
Ta hicrinə mən dözərəm, qəlbim desə yarın hanı?

Sevinərəm yetsəm cana, sevinməzmi bundan canan?
Söyləməzmi yetər həsrət, tutanda ahım cahanı?

Görsəm yarı qəlbim ağlar, sevinc yaşı seltək axar,
Kədər gedər ürəyimdən, tərk eləyər bu dünyanı.

İstəməzmi qəlbi yarın ürəyimiz bir döyünsün?
İstəməzmi eşqimizlə başa vuraq biz dövranı?

Könlüm deyir, fikir etmə, sən yarə bir namə göndər,
Cavabını yəqin verər, ürəyimin var gümanı.

Gəl ey canım, ömrümüzü sərf etməyək hədər yerə,
Yadına sal, necə oldu Leyli Məcnunun dastanı.

Ey Hafizin pak eşqini dilində dastan eyləyən,
Bu dastan; sən yaşatsan, sona yetirər hicranı.

***09-10.12.2019***

## Eşq daha əfsanə olub

Dönmüşdür indi zəmanə, eşq daha əfsanə olub,
Mal-dövlətin varsa əgər, gözəllər pərvanə olub.

Qeys də Məcnun ola bilmir, Leylinin istəyi başqa,
Kim istərsə könül versin, deyərlər divanə olub.

Dağ-dərəni fəth eləyən Fərhad daha dəbdə deyil,
Kimsə saraylar ucaltsa, istəkdə yeganə olub.

Kitablar dəbdən düşübdür, Fizuli ah-fəqan eylər,
Oxuyan tapılmır əsla, çün ruhu viranə olub.

Keçən günlər, keçib gedib, can dediyim can eşitmir,
Görənlər də hey söyləyir, təqsirkar zəmanə olub.

Zaman zaman təki gedir, tanrı buna rəva bilib,
Yəqin dəyişən insandır, hər şeyə biganə olub.

Sən, ey Hafiz, gördüyündən qələm alıb, yaz dəftərə,
Qiymət verən zaman yetər, səndən bir nişanə olub.

***19-20.12.2019***

## Söylə, bu nə sirrdir

Şükürlər Xudaya, ayırdın mənə də zaman,
Qəlbimdə yaratmaq eşqinə yaratdın güman.

Yaratmaq bir sirrdir, kimsənin yoxdur xəbəri,
Verəcək qiyməti, yəqin ki, bir zaman dövran.

Yaratmaq eşqiylə ürəyim vurandan bəri,
Qəlblərə yol tapar incilər, eylərəm ehsan.

Yazılan hər şeir, rübai, deyilən qəzəl,
Fələyin sirridir, bir zaman ahımdan yanan.

Hər şeir qəlbimin naləsi, kimə söyləyim?
Məsləhət bildilər, yenə də yarə et bəyan.

Gümanım ol yarə varmıdır, bilmirəm nədən?
Könlümün xəbəri olmadan tutmuşdur məkan.

Ey Hafiz, söylə, bu nə sirrdir, bilmək istərəm,
Yayılıb aləmdə, olubdur sanki bir dastan.

***25-26.12.2019***

## Dünya sənsiz nə lazım

Bilən yoxdur, nədir qəlbin bu sirri,
Nəyi sevir, nədən gəlir kədəri.

Günüm sevinc, günüm qəmdir, nədəndir?
Bəzən azdır, bəzən də çox qədəri.

Ürəyimi həsrət üzür neyləyim?
Zərrə-zərrə almaq istər xəbəri.

Könlüm yanır, səndən ayrı dolansam,
Qəlbim ağlar, səni görəndən bəri.

Keçdim candan, dünya sənsiz nə lazım,
Ol səbəbdən bir də görüm dilbəri.

Bəs deyilmi, ey afətim, əzablar,
Bu sevdadan söylə varmı betəri?

Bir gün gələr qəlbin səndən inciyər,
İstər səndən haqq-hesabı, dəyəri.

Hafizin də ürəyi var, səbri var,
Getsə əgər, qalar şeri, əsəri.

***28-29.12.2019***

## Gələr qocalıq

Bir zaman eşq odu səni tərk edər, gələr qocalıq,
Xəyallar qayıdar hər axşam-səhər, gələr qocalıq.

Yadına düşürmü, bu yolda zirvələr fəth edərdin?
İndisə köməyə çəliyin yetər, gələr qocalıq.

Gözlərin yol çəkər, üzər qəm-kədər, qəlbin incələr,
Ürəyin sərt sözdən o dəm çövrələr, gələr qocalıq.

Ötürdün illəri ömürdən belə, əsən küləktək,
Keçmişdən xatirə eyləsə səfər, gələr qocalıq.

Dostların əgər getsələr, ürəyin boşalar tamam,
Yeni dost tapmağın çətin nə qədər, gələr qocalıq.

Zamanı saxlamaq heç kəs bacarmaz, ötüb gedəcək,
Qocalıq dövrünü sanma gəl hədər, gələr qocalıq.

Ey Hafiz, qocalıq sərvətdir, hərgah qismətin olsa,
Elin də, yurdun da hörmət göstərər, gələr qocalıq.

***04.01.2020***

## Məni hərdən xatırla sən

Kədər məndən ötüb gedər, məni hərdən xatırla sən,
Bəlkə eşqin canə yetər, məni hərdən xatırla sən.

Heç bilmədim məndən niyə, ayrı gəzib dolanırsan,
Könlün istər alsın xəbər, məni hərdən xatırla sən.

Yada salsan əhd-peymanı, könlün məgər sızıldamaz?
Qəlbim istər səntək əsmər, məni hərdən xatırla sən.

Neyləyirəm malı, mülkü, sənsiz onlar sevinc verməz,
Sənlə təki tapdım cövhər, məni hərdən xatırla sən.

Rəqiblərlə sevda qurmaz, könlün sənə hey söyləyər,
Muradına çatmaq istər, məni hərdən xatırla sən.

Ahım tutanda aləmi, qəlbin sənin eşitməz heç,
Ürək daşdan olsa əgər, məni hərdən xatırla sən.

Nə söyləsə Hafiz aşkar, sevər onu tanıyanlar,
Dünya bir gün onsuz deyər, məni hərdən xatırla sən.

***05.01.2020***

## Qəlbim deyir, gözləmə sən

Dedilər ki, ol dildarın hər yanda səndən danışır,
Yazdığın qəzəldən dəftər sinəsi hərdən alışır.

Söylərəm qoy söyləsin, söylədiyi ürəkdəndir,
Qəlbim fərəhdən döyünür, ruhum göylərlə çalışır.

Eşitməsəm ondan xəbər, halım pərişandır yaman,
Sevinc gedir, kədər gəlir, düşüncələr hey qarışır.

Heç bilmirəm, bir zamanlar könlüm nəğmə yazacaqmı?
Ötür günlər, ötür illər ürək zamanla yarışır.

Gəl sevgilim, məndən uzaq dolanma sən, söhbət olur,
Məndən sənə, səndən mənə, aralıqda söz dolaşır.

Rəqiblərim çox çalışır, səni məndən uzaq salsın,
Əhdi-peyman eyləmişik, küsmək bizə heç yaraşır?

Qəlbim deyir, gözləmə sən, bu gün sabah yar gələsi,
Yollan özün, ol məkana, desinlər Hafiz barışır.

***09.01.2020***

## *Elmin yolları çox çətin oldu*

Yandıran qəlbini bir həsrət, ta ki, əzəldən oldu,
Seçdiyin bu yolda çəkdiyin əzab bəs nədən oldu?

Varmıdır hər kəsin qisməti, ona açılsın sirlər?
Tək-tək seçilmiş insana müyəssər, bu, hərdən oldu.

Tanrı sevdiyi insana sirləri bəyan eyləyər,
Açılan bu sirlər qanundur, elmdə bir məskən oldu.

Elmdə atılan hər addım alimə şərəf gətirər,
Yazılan kitablar, qanunlar məşhuri vətən oldu.

Elm yolu mürəkkəb, gətirər həm sevinc, həm də ki, kədər,
İmzanı görəndə orda, millət də sevinən oldu.

Hafuz, bu yolda çəkdiyin əzablar bir gün ki, gələr,
Dillərin əzbəri, qəlblərdə yaşayan nişanən oldu.

***21-23.01.2020***

## *Nədən yanmır bu asiman*

Nədən yanmır bu asiman, verdiyin sonsuz cəfadan,
Ürəyim hey alovlanır, dayanmadan zaman-zaman.

Bu sevdadan qəlb pərişan, görən deyir nə haldır bu,
Yarə deyin ötsə zaman, məgər olmazmı peşiman?

Soruşdum mən varmı güman, bilən yoxdur ki, söyləsin,
Qəlbim edər gündə fəqan, çarə yetməz versəm ehsan?

Dedilər istərsən aman, ustadları oxu hərdən,
Leyli, Məcnun olan andan, vardır sevənlərdən dastan.

O dastanın vaxtı ötmüş, dövran indi tamam başqa,
Əgər qəlbdə olsa tufan, getməz ondan yenə hicran.

Bəlkə hicran ötüb keçər, həsrət qalar ürəyimdə,
Görsə nədən həsrətdəyəm, canan özü edər üsyan.

Sən, ey Hafiz, heç qəm yemə, artıq xəbər yetib cana,
Bu gün, sabah verər qərar, edər yəqin əhdi bəyan.

***26-27.01.2020***

## *Bir möhlət istədim*

Bir möhlət istədim, Tanrıdan verəndə qərar,
Yaratmaq eşqiylə ürəyim çırpınıb yanar.

Vaxt lazım qəzəli yazmağa yetişsin ustad,
Ustadın şeirində hikməti, fəlsəfəsi var.

Qəzəl yaz, oxuyan söyləsin, min kərə əhsən,
Qəzəlsiz məclis də sükunət, sanki bir məzar.

Mey olan məclisdə ürəyə qəzəl yol açar,
Qəzəllə qazanar aləmdə şair etibar.

Qəzəl sevənlərə köməkdir, yaddaşda qalar,
Həsrətlə hər şirin kəlməni yadına salar.

Qəzəl qocalara dayaqdır, qəlbində dildar,
Gələr xatirələr yenidən bir daha təkrar.

Qəzələ qiyməti Nizami, Fizuli vermiş,
Qəzəllər yaz, Hafiz, qalma bu cərgədən kənar.

***30-31.01.2020***